Bazar, 19 yanvar 1919-cu il, nömrə 91

# AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 16 rəbiülaxir sənə 1337. 19 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 8-inci iclas

Cümə axşamı kanuni-saninin [yanvarın] 12-sində Azərbaycan Məclisi-Məbusanının 8-inci iclası təyin edilmişdi.

İclas 12 saat 40 dəqiqədə açılır.

Sədr - doktor Həsən bəy Ağayev; katib - Əhməd Cövdət.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] elan edildikdən sonra, **[Əliheydər] Qarayev** növbədən xaric səs alaraq Sosialistlərin fraksiyası tərəfindən bəyan edir ki, bir neçə müddətdir ki, Tağıyev fabrikasının bəzi fəhlələri müdiriyyət tərəfindən [işdən] çıxarılmışlardır. Məsai [Əmək] naziri burada bəyan etmişdir ki, məzkur [deyilən] fəhlələrin 7 günədək geri qəbul edilmələri barəsində binagüzarlıq etmişdir [sərəncam vermişdir]. Şimdi 7 gün qurtarmış, amma fəhlələr geri qəbul olunmamışlardır. Topladığımız məlumatdan anlaşılır ki, bu fəhlələr sırf siyasi məsələdən dolayı xaric edilmişlərdir. Böylə işlər fəhlə məsələsində bizə böyük zərbə vura bilər. Biz razı olmarız ki, fəhlə nahaq yerə mütəzərrir olsun [zərər çəksin]. Sizə məlumdur ki, fəhlələrin halı haqqında keçən iclasda Məsai nazirinə xitabən istizah [sorğu] verilmişdi ("Müsavat" tərəfindən). Fəhlə işsiz qalmışdır. Çalışmalıdır ki, tətil olmasın. Əgər tezliklə ciddi tədbirlər görülməsə, biz sosialistlər məsuliyyəti öz öhdəmizdən atırız.

### Etibarnamə komisyonu məruzəsi

Bundan sonra Etibarnamə komisyonu sədri **Şəfi bəy Rüstəmbəyli** bəzi məbuslar [Parlament üzvləri] haqqında məlumat verir. Deyir ki:

Məlum olduğu üzrə, Parlamanın keçən iclaslarından birisində məbusların etibarnaməsi məsələsi müzakirə edilərkən, bəzi məbuslara möhlət verilmişdi ki, bir ay zərfində düzgün etibarnamə təqdim etməyə çalışsınlar. Şimdi bir ay bitmiş, fəqət bu xüsusda komisyona məlumat varid olmamışdır [gəlməmişdir]. Ona görə Etibarnamə komisyonu təvəqqe edir ki, bu məbuslara təzədən üç həftə möhlət verilsin. Bundan əlavə, Şuşa qəzasından seçilmiş olan Zeynal bəy Vəzirov ilə Əhməd bəy Ağayevin etibarnamələri düzgün və qanuna müvafiq olduğundan, komisyon bunların təsdiqini təklif edir. Əhməd bəy imtina etmişdir.

Qalır Vəzirov cənabları. Həmçinin Zaqatala nahiyəsindən seçilmiş Bayram Niyazi Kiçikxanov və [Abdulla əfəndi] Qəbulov cənablarının etibarnamələrini təsdiq etməlidir.

Səsə qonularaq Etibarnamə komisyonunun məruzəsi ittifaqi-ara [yekdillik] ilə təsdiq olunur.

**Kvorum**

Sədr bəyan edir ki, Nizamnamə komisyonu tərəfindən bu vaxtadək kvorum haqqında bir qanun verilməmiş olduğundan, Heyəti-Rüəsa [Rəyasət Heyəti] təklif edir bu gün kvorum təyin olunsun.

**Cəmo bəy Hacınski** (sosialist) - Məlum olduğu üzrə, Parlaman məbuslarının bir qismi Hökumətə daxil olub, bir qismi də Avropaya getmişdir. Ona görə də Sosialistlər fraksiyonu təklif edir, kvorum hazır məbusların yarısı, yəni 33 təyin olunsun.

**M. Ə. Rəsulzadə** ("Müsavat") - yerindən təklif edir ki, Parlamana nə qədər məbus seçilmiş və hazır olduğu göstərilsin.

**Sədr** - bəyan edir ki, bu vaxtadək 82 məbus seçilmişdir.

**Rəsulzadə** - təklif edir ki, bu surətdə kvorum seçilmiş əzanın yarısı (yəni 41) qərar qəbul olunur.

Səsə qonulduqda əksəriyyəti-ara ilə ikinci təklif qəbul olunur.

**Cəmo bəy** - Bu surətdə çünki şimdi kvorum yoxdur, ona görə də iclas davam edəmməz.

*(Səs-küy qalxır. Məbusları sayırlar. Məlum olur ki, kvorum varmış. İclas davam edir.)*

**Parlamanda hazır olmayan məbuslar haqqında qanun layihəsi**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən Parlamana idxal edilmiş olan zeyldəki [aşağıdakı] qanun layihəsini katib oxuyur:

1) 1918 sənəsi dekabr ayının 7-dən, yəni Parlaman açılan gündən etibarən bir ay yarım zərfində Parlamana gəlməyib də səbəbini də bildirməyən məbuslar Parlamandan xaric edilirlər.

2) Parlamandan gedib də bir ay zərfində Heyəti-Rüəsaya bu xüsusda məlumat verməyən məbuslar Parlamandan çıxmış hesab edilirlər.

3) Bu surətlə Parlamandan kənar olan məbusların yerinə onu seçmiş olan firqə yaxud təşkilat tərəfindən yeni məbus intixab ediləcəkdir [seçiləcəkdir].

**M. Ə. Rəsulzadə** - Layiheyi-qanuniyyəni [qanun layihəsini] müdafiə edərək deyir ki:

Mən elə bilirəm layiheyi-qanuniyyənin məqsədi möhtərəm məbuslara aydındır və bu xüsusda öylə ciddi və müfəssəl bəyanata ehtiyac yoxdur. Məbuslardan bir qismi firqə siyahıları üzərinə sabiq Məclisi-Müəssisana, digər qismi də yenə siyahı üzərinə Zaqafqaziya Seyminə daha sonra seçilərək, sonra Azərbaycan Məclisi-Məbusanına daxil olmuşlardır. Bunlardan bir çoxları Bakıya gələ bilmirlər. Görürsünüz, imdi az qalmışdı kvorum düzəlməyib iclas qapansın. Madam ki, onlar siyahı üzərinə seçki üsulu ilə məbus seçilmişlərdir, yəqindir ki, siyahını verən firqə, kənar olan məbusinin [məbusların] yerinə başqa namizəd göstərə bilər. Siyahı ilə keçən məbusların bəziləri əsla Bakıya gələ bilmirlər. Binai-

leyh [ona görə] də, siyahı məbussuz qalır. Ona görə mən bu qanunun qəbul olunmasını təklif edirəm.

**Qarabəyli** (İttihad) - Məlumdur ki, böylə bir qanuna ehtiyac vardır. Çünki biz gözləyə bilmərik, məbus nə vaxt gələcəkdir. Bəlkə heç imkanı yoxdur gəlməyə, fəqət ikinci maddəni bir qədər təshih etməlidir [düzəltmək lazımdır]. Zira gedən əzanı [üzvləri] bir ay gözləmək olmaz. Bu çox uzun müddət və böyük möhlətdir. Binaənileyh mən təklif edirəm möhlət az olsun, 15 gün.

**Kiçikxanov** (Əhrar) - Layiheyi-qanuniyyənin bəzi maddələri aydın deyildir. Ona görə xahiş edərdim, bundan böylə qanun yazılanda maddələri aydın olsun.

**Rəsulzadə** - “Parlaman açılan gündən” denildikdə, yəqin ki, bu maddə əsas siyahı ilə Parlamana seçilib də bu vaxtadək Bakıya gəlməyə imkanı olmayan məbuslara aiddir. Bir ay Parlamana gəlməyib də bu xüsusda məlumat verməyən məbusların xaric hesab olunmaları haqqındakı ikinci maddəyə gəlincə, biz bunu nəzərdə tutmuşduq ki, bir məbus Bakıdan gedir, lakin ola bilər ki, iki həftə müddətində məlumat verə bilməsin. Yolların, post və teleqrafın halı özünüzə məlumdur. Birdən öylə olur ki, bir adam teleqraf çəkir, lakin özü teleqrafdan tez gəlir. Bu mülahizə ilədir ki, biz bir ay möhlət təyin elədik. Təshih məsələsinə gəlincə, məlumdur ki, həmin komissiya bunu icra edəcəkdir.

**Cəmo bəy** - Biz təklif ediriz bu layihəyə böylə bir maddə də əlavə edilsin: Bakıda olub da Parlaman iclasına gəlməyən məbuslara o günün maaşı verilməsin.

**Qarabəyli** - Bir çox yerlərdən hələ məbus gəlməmişdir. Biz bilmiriz o yerlər məbus seçməmişlərdir, yoxsa seçmişlərdir. Ona görə təklif ediriz Daxiliyyə Nəzarətinin əli ilə bir komisyon təşkil olunsun ki, o yerlərdən məbusların nə üçün gəlmədikləri barəsində təhqiqat icra edilsin. Böylə təhqiqat icra edilmədən idxal olunan qanun layihəsi qəbula keçərsə, bəzi yerləri nümayəndəlikdən məhrum qılmış olarız. Bu cəhətə, böylə qanun vermək hələ tezdir.

**Rəsulzadə** - göstərir ki, bu məsələ ilə qanun maddəsi arasında heç bir əlaqə yoxdur. Bu, müstəqil bir məsələdir. Ona görə də müstəqillən müzakirə edilə bilər.

Qanun layihəsi maddəbəmaddə oxunur. Əksəriyyəti-ara [səs çoxluğu] ilə layihə qəbul olunur. İkinci maddə bir ay əvəzinə iki həftə möhlət verilmək üzrə təshih edilir.

**Cəmo bəy** - sosialistlər tərəfindən təklif olunan 4-cü maddənin qəbulunu israrla tələb edir.

**Rəsulzadə** - Məclisi-Məbusan üçün daxili nizamnamə tərtib vermək, iclasları nizama salmaq, gəlməyən məbuslar haqqında qanun vermək və sairə üçün Parlamanın Nizamnamə komissiyası var. Bu komissiya daxili nizam haqqında müfəssəl qanun verəcəkdir. Şimdi isə böylə təfərrüatı qanuna əlavə etmək münasib deyildir.

**Cəmo bəy** - Nizamnamə komisyonu bu vaxtadək hələ qanun verməmişdir, bəlkə bir ay, iki ay da bir iş görməyəcəkdir.

**Rəsulzadə** (yerindən) - Öylə isə komisyona cəza verməlidir ki, işləsin.

Səsə qoyulduqda, sosialistlərin əlavə etdiyi 4-cü maddə əksəriyyəti-ara ilə rədd edilir.

**Ədəmi-ictima**

Bundan sonra katib cənabları "Müsavat" fraksiyonu tərəfindən idxal edilmiş olan "Ədəmi-ictima" [eyni zamanda bir neçə vəzifə tutmağın yolverilməzliyi] layiheyi-qanuniyyəsini oxuyur. Bu qanuna görə, Məclisi-Məbusan əzası [üzvləri] heç vaxt hökumət məmuriyyətində ola bilməzlər. Ancaq Parlaman məbusları nazir ola bilərlər.

**Vonsoviç** - Fransa, Amerika və İngiltərə məşrutələrindən [konstitusiyalı quruluşlarından] misal gətirərək, bu məmləkətlərdə qüvveyi-təşriiyyə [qanunverici hakimiyyət] və qüvveyi-icraiyyənin [icraedici hakimiyyətin] aydın və qəti bir surətdə təyin edilmiş olduqlarını göstərərək deyir ki, ədəmi-ictima məsələsinə Azərbaycanda böylə baxmaq olmaz. Məsələn dövlət xidmətində öylə məbuslar var ki, qanun vəz'inə [qanunvericilik funksiyasına] heç xələl vermədən məmur ola bilərlər. Ona görə natiq təklif edir ki, bu layihə, Qanun vəz' edici [qanunverici] komisyona verilsin.

**Vinoqradov** - Sabiq natiqin rəyinə şərik olaraq [deyir ki,] böylə bir qanun cavan Azərbaycana zərər verər. Hazırda Azərbaycanda işləyən pək azdır. Şimdi onların da hüququ təhdid edilərsə [məhdudlaşdırılarsa], məmləkət quruluşuna sui-təsir edər.

**[Abdulla bəy] Əfəndizadə** - Əvvəlki natiqlər layihənin komisyona verilməsini istədilər. Məncə bu doğrudur. Məbusları təhdid edərsək [məhdudlaşdırarsaq], böyük müşkülat çıxar. Məsələn müəllimlər var ki, 30 il xalq içində qulluq edib nüfuz və etibar qazanmışlardır. Onları təhdid etsəniz, bu qanuna görə məbus olub Parlamanda işləyə bilməzlər. Məncə komisyon bəzi istisnalar etməlidir.

**Rəsulzadə** - Sabiq natiqlərə cavab verərək, İngiltərə məşrutəsində qüvveyi-təşriiyyənin qüvveyi-icraiyyədən tamamilə ayrılmış olduğunu göstərərək, layihənin komisyona verilməsinə razı olmaqla bərabər deyir ki:

Fəqət əvvəlki natiqlərin dediklərindən anlaşıldı ki, onlar layihəni basdırmaq üçün komisyona vermək istəyirlər, mən isə komisyona verilməsinə razıyam bu şərtlə ki, müəyyən bir vaxt qoyulsun. O vaxtadək layihə basdırılmayıb baxılsın və Parlamana qaytarılsın. Məsələnin əsas cəhətinə gəlincə deyə bilərəm ki, Azərbaycanda qanuni-əsasi [konstitusiya] hələ tərtib verilməmişsə də, biz parlamentarizmi qəbul etmişik və qanuni-əsasimizin baş xəttini parlamentarizm təşkil edəcəkdir. Madam ki, böylədir, biz bu üsulun məntiqi tələblərinə əməl etməliyiz. Bu üzdən sair təfərrüatda da biz parlamentarizm qəbul etmiş olan məmləkətlərin, əzcümlə [o cümlədən] İngiltərənin qanunlarından qolaylıqla istifadə edə bilərik. Parlaman məbusu milləti təmsil edir, binaənileyh [ona görə], o həmişə azad olmalıdır. Bir məbus eyni zamanda hökumət məmuru olarsa, heç vaxt azad danışa bilməz. Bəziləri deyirlər ki, bu xüsusda Azərbaycan müstəsna bir mövqe tutmalıdır, çünki mədəni qüvvəmiz azdır. Mən zənn etməm Azərbaycan mədəni qüvvədən o qədər məhrum olsun ki, Parlamana 60 məbus göndərdikdə, artıq hökumət məmurluğuna mədəni qüvvəsi qalmasın. Əgər bunca qüvvəsiz isək, onda heç bizə Parlaman lazım deyil. *(Soldan və mərkəzdən alqış)* Parlamansız məm-

ləkətdə istibdad olar. Halbuki biz parlaman və cümhuriyyət əsası ilə yaşamalı və məmləkətimizi bu əsas ilə idarə etməliyiz. Ancaq natiqlərdən birisinə cavab olaraq deyə bilərəm ki, bəzi istisnalar ola bilər. Məsələn, hökumət xidmətində olan yurist-konsult [hüquq məsləhətçiləri] və təbiblər. Heç vaxt hökumət onlara icrayi-təsir və təzyiq edə bilməz. Biləks [əksinə], böylə adamlar hökumət məmuriyyətində azad işləməklə bərabər, qanun vəz'i işlərində səlahiyyətdar mülahizələrini bəyanla qüvveyi-təşriiyyəyə müzahirət [köməklik] edə bilərlər. Fəqət mən digər bir natiqi anlayammam. Əgər bir öylə müəllim varsa – ki xalqın etibar və etimadını qazanıb Parlamana seçilməli olsun – böylə müəllim heç vaxt müəllimliyə geri qəbul olunmamasından qorxmaz, çünki bu kimi zəvata [şəxslərə] böyük ehtiyacımız var. Millət həmişə böylələrinə: "Gözümüz üstündə yerin var!" deyir. *(Alqış)* Təkrar deyirəm, layihənin komisyona verilməsinə mən də razıyam, amma müəyyən möhlət şərti ilə.

Təklif olunur ki, komisyon layihəyə tez baxıb gələn iclasadək qaytarsın Parlamana. Sair səslər bir həftə və 10 gün təklif edirlər.

Səsə qoyulduqda, 10 gün qəbul olunur. Bundan sonra Qanunverici komisyon intixab edilir [seçilir].

Seçilən üzvlər bunlardır:

Məhəmməd Əmin bəy Rəsulzadə ("Müsavat"), Vinoqradov (Rus-Slav), Aslan bəy Qardaşov ("Əhrar"), Vonsoviç (azlıqda qalan millətlərdən), Qarabəyli Qarabəy ("İttihad"), Əhməd Cövdət (Sosialistlər İttifaqı), Əliheydər Qarayev ("Hümmət"), Xosrov bəy Sultanov (bitərəflər).

## TELEQRAF XƏBƏRLƏRİ

**Almaniyada**

Ali Hərbi Komitə bəyan eyləyir ki, Almaniyaya ərzaq gətirməkdən ötrü Almaniya bütün ticarət gəmilərini ərzaq daşımaqdan ötrü Müttəfiqlərin ixtiyarına verməlidir.

Yanvarın 13-ü tarixi ilə Berlindən çəkilən teleqrafda deyilir ki, spartakların hücumundan əmələ gələn həyəcan bir dərəcə yatmışdır. Yanvarın 12-də şəhər içində olan müsadimə [toqquşma] dayandırılıb, yalnız qəzetə idarələri dairələrində xırda atışmalar olurmuş.

Almaniyada bolşeviklər əleyhinə olan mübarizə milli bir rəng almışdır. Almaniyanın ətraf şəhərlərindən gələn teleqramda deyilir ki, spartakların hərəkəti hər yerdə zəifləşir.

**Saldatların üsyanı**

Amsterdam - Konqre Şurasında Bart ilə Ebert arasında olan mübahisə zamanı Berlin qarnizonundan 30 nəfər saldat, Şura salonuna girərək bilatəxir [dərhal] Saldat Nümayəndələri Ali Şurası məsələsinin müzakirə edilməsini tələb etmişlərdir. Bütün qoşunlar bu Ali Şuraya itaət etməlidir.

Şura sədri, bu məsələnin əcələ ilə müzakirə edilməsi mümkün deyil dedikdə, müxtəsər bir üsyan əmələ gəlmiş, Lideberq də saldatların tərəfini saxlayıb, bilatəxir məsələnin müzakirə edilməsini tələb etmişdir. Fəqət sosialistlər buna

protesto edərək, Şuradan çıxmaqla hədələmişlərdir. Bu isə bir qədər də həyəcanın artmasına səbəb olmuşdur. Haaze iclası sakitliyə dəvət edib, məclisi bir neçə gün təxirə salmışdır.

* Müharibənin ibtidasından [başlanğıcından] bəri Hamburqda saxlanmış olan 15 ədəd ingilis ticarət gəmisi Almaniya komandası altında Tayna varid olmuşdur.

**Nemeslər Çində**

Çindəki gömrükxana rəisləri qərar qoymuşlar ki, Çin gömrükxanalarında çalışmaqda olan nemeslər qulluqlarından kənar edilsinlər. Buna da səbəb, Müttəfiqlər təbəələrinin nemeslərlə bir yerdə çalışmaqdan imtina etdikləridir.

**Lehistanda [Polşada]**

Kopenhaq – Berlindən xəbər verilir: Lehistan hökuməti yanvarın 23-də Məclisi-Müəssisan dəvətinə qərar vermişdir. Məclisi-Müəssisan heyətinə Almaniyanın şərqi cəhətləri nümayəndələri də daxildirlər. Almaniya mətbuatı polyakların bu iqdamatına [təşəbbüsünə] protesto edərək, böyləliklə, Almaniya torpağının Lehistana ilhaq edildiyini [birləşdirildiyini] göstərirlər.

**İngilislər bolşeviklər haqqında**

"Deyli xronikl" qəzetəsinin xüsusi müxbiri yazır:

*"Ərzaq işləri bolşeviklərin əlində olduğundan, aclıqdan xilas olmağa yegana əlac, onlara mülhəq olmaqdır [onlarla birləşməkdir]. Ona görə də minlərlə afserlərin [zabitlərin] bolşeviklərə qulluq etmələri, aclıqdan ölməmək üçündür."*

Bolşeviklərin 3 milyonluq bir qüvvəsi var deyə şaye olan [yayılan] xəbərləri müxbir təkzib edib deyir ki:

*"Bütün Rusiyada bolşeviklərin 180 mindən artıq qoşunları yoxdur. Təbii, onlar bu qüvvələrini artırmaq istəyəcəklərdir. Tainki böyük bir qüvvə ilə Avropaya hücum edib bolşevizmi Avropada intişar etsinlər [yaysınlar]."*

Roma – Sabiq Rusiya Xariciyyə naziri Milyukov hazırda İtaliya paytaxtı Romadadır. Milyukov deyir ki:

*"Rusiyanı tarixdə misli görülməmiş təhlükə təhdid edir. Müttəfiqlərin Rusiya işlərinə müdaxilə etmələri, şübhəsiz, lazımdır. Bir il bundan əvvəl Rusiyanı müxtəsər qüvvə ilə xilas etmək mümkün idi. Amma indi bunun üçün böyük bir ordu lazımdır."*

Müttəfiq məmləkətlərdəki əmələ [fəhlə] və sosialistlərin Rusiya işlərinə müdaxilə etmələrinə protesto etmələri, Milyukovun rəyincə, səhvdir:

*"Əmələlər zənn edirlər ki, guya bolşevizm iqtisadi cəhətdən mənfəət verir. Amma mənfəət əvəzinə zərər verir. Rusiya əhalisinin 99 faizi Müttəfiqlərin Rusiya işlərinə müdaxilə etmələrinə razıdır."*

**Moskvada idareyi-örfiyyeyi-əsgəriyyə**

Stokholmdan "Tayms" qəzetəsinə xəbər verilir: Şura hökuməti əks-inqilabçılarla mübarizədən ötrü Moskvada idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] elan eyləmişlər. Petroqrad ilə Moskvada bolşeviklər əleyhinə olan təbliğat artır. Bu günlərdə Petroqradda 200

professor, doktor və sair alim həbs edilmişdir.

**Amiral Kolçak hökuməti**

Yekaterinodar diplomasiya dairəsinə verilən xəbərlərə nəzərən, amiral [admiral] Kolçak hökuməti[ni] Müttəfiqlər təsdiq edirlər. Bu hökumət nəzdinə Müttəfiqlər tərəfindən 5 nümayəndə göndərilmişdir. Şayiata görə, amiral Kolçakın təhti-idarəsində [idarəsi altında] 300 min qoşun vardır.

"Priazovski kray" qəzetəsinin xüsusi müxbiri yazır ki, sabiq Xariciyyə vəziri [naziri] Sazonova London vasitəsilə amiral Kolçak hökumətində Xariciyyə nazirliyi təklif edilmiş, Sazonov bu təklifi qəbul eyləmişdir.

## SÜLH KONFRANSI

Londondan İstanbula xəbər verirlər ki, "Deyli nyus" qəzetəsinin verdiyi məlumata görə, Sülh Konfransı yanvar ayında Versalda yığılacaqdır. Fransa hökuməti tərəfindən Klemanso, Brian, Tardyö və Burjuva iştirak edəcəklərdir. İngiltərə tərəfindən Lloyd Corc, Balfur, Lord Eden, fəhlə firqəsi nümayəndələri və bir neçə nəfər də müstəmləkat nümayəndələri [müstəmləkələrin nümayəndələri] olacaqdır. Amerika hökuməti tərəfindən Vilson, sabiq Xariciyyə vəziri Rut, Lansinq və polkovnik Hauz isbati-vücud [iştirak] edəcəklərdir. İtaliya tərəfdən Sonnino və Orlando, Belçikadan isə hələliyə ancaq Vanderveldenin nümayəndə olacağı məlum olmuşdur. Yaponiya hökumətindən London və Parisdə olan Yaponiya səfirləri Çinda və Matsui iştirak edəcəklərdir. Rumıniyadan Take İonesku, Yunanıstandan Venizelos, Serbiyadan Paşiç, çexslavlardan Masarik, Avstriya cənubi slavlar[ın]dan Deniç nümayəndə olacaqlardır. Rusiyadan Sülh Konfransında nümayəndə kim olacağı hələ məlum deyildir.

**Mütarikə komissiyası**

Mütarikə şəraitini [atəşkəs şərtlərini] əmələ gətirməkdən ötrü yanvarın 14 və ya 15-ində Qrevdə mütarikə komissiyası dəvət ediləcəkdir. Çünki almanlar hamı [bütün] mütarikə şəraitinə əməl etməmişlərdir.

* Şura böylə qət eyləmişdir: Beş böyük Avropa dövlətlərinin hər birinin Sülh Konfransında beş nümayəndəsi, Braziliyanın üç, Belçika, Serbiya, Polşa, Çex-slovak, Rumıniya və Çinin ikişər nümayəndələri, Almaniya ilə tərki-əlaqə etmiş [əlaqəsini kəsmiş] olan dövlətlərin birər nümayəndələri olacaq. Nümayəndələrin çoxluğuna baxmayaraq, hər dövlətin konqredə bir səsi olacaqdır.

## QƏZETƏLƏRDƏN

**Bolşeviklər və Ufa hökuməti**

*(Bolşevik teleqraf acentəliyindən)*

Moskva – Yanvar ayının əvvəllərində Məclisi-Müəssisan üzvlərinin komitəsi tərəfindən düşmənanə hərəkatın qət edilməsi [kəsilməsi] haqqında müzakirat başlanmasını Ufa hərbi inqilab komitəsinə təklif etmişdir. Məclisi-Müəssisan tərəfdarları öz nümayəndələrinin məsun [toxunulmaz] qalmalarına təminat tələb

etmişlər. Ufa hərbi inqilab komitəsi bu təklifi xalq komissarları şurasına xəbər verib müzakirat başlanmasına icazə almışdır. Məclisi-Müəssisan tərəfdarlarından Volski, Svyasnitski və Şmelyov nümayəndə gəlmişlərdir. Məclisi-Müəssisan üzvləri komitəsi Məclisi-Müəssisan tərəfdarı əsgərləri ilə bolşevik ordusu arasında hərbi hərəkatın dayandırılması və Kolçakla Müttəfiqlər əleyhinə müttəhidən [birgə] hərəkat başlamağı təklif etmişlərdir. Bundan əlavə, hamı sosialist firqələri nümayəndələrindən ibarət Ümumrusiya Hökuməti təşkili ilə təzə Məclisi-Müəssisan dəvət edilməsi təklifində bulunmuşlardır. Bu təklifə cavab olaraq qəti surətdə izhar edilmişdir ki, Məclisi-Müəssisan dəvət edilməsi haqqında bir söz danışmaq olmaz. Bundan əlavə, Rusiyada olan bolşevik hökumətində heç bir təbədüllata [dəyişikliyə] yol vermək mümkün deyildir. Şura hökuməti ancaq Məclisi-Müəssisan tərəfdarlarının öz qüvvələrini Kolçakla Müttəfiqlər əleyhinə verilmələri arzusunun ciddi olduğuna inanması şərti ilə sağ eser firqəsini üzə çıxarmağa [leqallaşdırmağa] razı ola bilər. Buna cavab olaraq Məclisi-Müəssisan tərəfdarlarının nümayəndələri komitə tərəfdarlarının hamısına xitabən bolşeviklərlə müharibəni qət edib, Kolçakla Müttəfiq imperialistlər əleyhinə iş görməyə başlamaq haqqındakı dəvətnaməsini pişnihad [təqdim] etmişdir. Müzakirat davam etməkdədir.

**Rus pulları**

Fransa Məclisi-Məbusan və Məclisi-Əyanında Fransanın təzə istiqrazı müzakirə edildikdə rus dövlət iltizamnamələrinin ədası məsələsi müzakirə edilmişdir. Hökumət təklifinə görə 1918-ci ildə vaxtı qurtaran rus kağız pullarının kuponu yarı qiymətlə əda edilməlidir. Ciddi mübahisə əsnasında, rus hökumətini bakrot (bərşikəst [müflis]) hesab etməlidir, səsləri eşidilmişdir. Müzakiratdan sonra hökumətin təklifi palatada 482 səslə (6 səs əleyhinə) və Məclisi-Əyanda bir səs əleyhinə 220 səslə qəbul edilmişdir. Bu qərar üzrə Fransa Parlamanının hökumət təklifinə əksəriyyətlə səs verməsi bunu göstərir ki, bolşeviklərin istiqrazları ləğv etmək əmrinə Fransada heç bir əhəmiyyət verilmir.

**Türkiyədə**

Bu günlərdə Ukrayna səfiri Sultan həzrətlərinin hüzuruna qəbul edilib, müşarünileyhə [ona] etibarnaməsini təqdim eyləmişdir.

* İstanbuldakı Müttəfiq komandanın tələbi üzərinə Babi-ali, Bolqariya ilə diplomasi əlaqəsini kəsməyə razı olmuşdur. Bolqariya səfiri İstanbuldan çıxır, Türkiyənin Bolqariyada olan səfiri hakəza [eləcə də] geri çağırılır.

* Türkiyə mətbuatında yazıldığına görə, “velikiy knyaz” [böyük knyaz] Nikolay Nikolayeviç, Rusiyaya diktator təyin edilir. Məclisi-Müəssisan dəvətinədək bütün ümuri-idarə [idarə işləri] ona tapşırılır.

## GÜRCÜ-ERMƏNİ MÜTARİKƏSİ ƏTRAFINDA

* Gürcüstan və Ermənistan hökumətləri arasında olan bir para mübahisəli

məsələləri müzakirə etməkdən ötrü Gürcüstan Xariciyyə Nəzarəti nəzdində İngiltərə heyəti ilə gürcü və erməni nümayəndələrinin müşavirəsi başlanmışdır.

* Tiflisdən yazırlar ki, gürcü və erməni müzakiratı İngiltərə polkovnikinin sədarəti altında vaqe olur. Məzkur polkovnik özünü bitərəf tutur. Birinci məsələ gürcü və erməni əsgərlərinin tərxis edilməsi haqqında olmuşdur. Gürcü nümayəndələri əsgərlərin tərxis edilib sülh zamanındakı miqdara salınması təklifində bulunmuşlardır. Erməni nümayəndələri İrəvanla teleqraf münasibatı [əlaqəsi] olmadığından, bu məsələnin bir qədər təxirə salınmasını xahiş etmişlərdir. Axırda aşkar olmuşdur ki, erməni nümayəndələri əsgərlərin tərxisini yanvarın 25-nə təyin etməyi mümkün görmüşdür. Nə miqdarda əsgər saxlanılması məsələsi mübahisəyə bais olmuşdur. Erməni nümayəndələri əsgərlərin miqdarını müharibə hərəkatı başlandığı zamandakı miqdarda saxlamağı təklif etmişlərdir. Gürcü nümayəndələri buna razı olmayıb demişlər ki, ermənilər müharibə hərəkatından iki ay qabaq əsgər cəm etməkdə ikən gürcülər isə müharibə hərəkatı başlandıqdan sonra əsgər cəm etməyə məcbur olmuşlardır. Erməni nümayəndələri özləri üçün əsgər saxlamağı lazım görüb demişlər ki, bu əsgərləri saxlamaqdan Gürcüstan əleyhinə hərəkati-hərbiyyədə bulunmaq qəsdi yoxdur. Gürcü nümayəndələri isə buna razı olmayıb Ermənistanın saxlayacağı miqdarda əsgər saxlamaqdan ötrü əvvəlcədən nə miqdarda əsgər saxlanılmasını aşkar etməyi tələb etmişlərdir. Bundan sonra bitərəf torpaqdan keçməkdə olan dəmiryol xəttinin kimin əlində olması məsələsi uzun mübahisə və münaqişəyə bais olmuşdur. Bu məsələ hələ qəti surətdə həll edilməmişdir.

Müzakiratdan hasil olan təəssürat budur ki, erməni nümayəndələri müzakiratı uzatmağa və yatırmağa çalışırlar. Gürcü nümayəndələri iclaslardan birində tezliklə tərxisi-əsgər lazım olduğunu təkid edərək demişlər ki, alınan xəbərələrə görə, ermənilər mütarikədən istifadə edib mütarikə şəraitinə [atəşkəs şərtlərinə] zidd olaraq əsgər cəm etməkdədirlər. Erməni nümayəndələri cavab vermişlər ki, onlar iki həftə bundan irəli İrəvandan çıxdıqlarına görə bu əhvalatdan xəbərləri yoxdur və zənnlərincə bu xəbər əsilsizdir.

Erməni nümayəndləri bu müzakiratda özlərini xeyli inadkaranə apardıqlarından, müşavirə sədri (İngiltərə polkovniki) tərəfindən neçə dəfə şiddətli məzəmmətə düçar olmuşlardır. Bu iş, müşavirədə iştirak edənlər üçün gözlənilməyən bir surətdə olduğundan, erməni nümayəndələri bir qədər yumuşalmışlardır. İngiltərə nümayəndələri Gürcüstanda və Azərbaycanda həqiqəti-əhvala aşina olduqdan sonra gəldikcə gürcülərə hüsntəvəccöh göstərməkdədirlər. Hər iki hökumət haqqında Müttəfiqlərə verilmiş olan məlumatın həqiqət olmadığı meydana çıxmaqdadır.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Petroqrad əhvalı**

* Petroqraddan Helsinqforsa gələnlərin rəvayətinə görə, Petroqrad əhvalı

xeyli fənadır. Əhali ac və soyuqda qalmışdır. O qədər adam qırılır ki, tabut kifayət etməyir.

* Finlandiya təriqi [yolu] ilə xəbər verirlər ki, Petroqrad qarnizonunda bolşeviklər əleyhinə şiddətli üsyan vardır.

**Mitavanın işğalı**

Riqadan xəbər verirlər ki, səhər, Qırmızı ordu əsgərləri Mitava şəhərinə daxil olmuşlardır.

**Lüksemburqda**

Lüksemburq hökuməti nəşr etdiyi [yaydığı] intibahnamədə [təbliğat vərəqələrində] cümhuriyyət nəfinə [xeyrinə] olan inqilab hərəkatı əleyhinə protesto ilə izhar edir ki, hökumət Müttəfiq dövlətlərlə, xüsusən Fransa və Belçika ilə iqtisadi ittifaqa girişməyi qərara almışdır. Lüksemburq kinyaqinyası taxtı-səltənətindən əl çəkməyə razı olduğunu bildirmişsə də, hökumət milli cümhuriyyəti mühafizə etməkdən ötrü xanədanı saxlamağı lazım görmüşdür. Bu məsələ camaatın arzusuna müvafiq bir surətdə həll ediləcəkdir.

**Müttəfiqlər və Almaniya**

Müttəfiq dövlətlərin əsgəri və bəhri [donanma] müttəfiqlər müşavirəsi bu məsələləri müzakirə etmişdir: polyaklara qüvvə göndərilməsi, sualtı qayıqları tərəfindən qərq edilən gəmilər əvəzində Almaniya ticarət gəmilərini Müttəfiq dövlətlərin işlətməsi, mütarikə şəraitini təmin etməkdən ötrü Almaniya limanlarının işğalı və qızıl mövcudu ilə Almaniyanı uzaqdan təmin etmək məsələsi.

**Transilvaniyanın ilhaqı**

Romaniyada nəşr edilən rəsmi qəzetə, Translivaniyanın qəti surətdə Romaniyaya ilhaq edilməsi haqqında bir əmrnamə elan etmişdir.

**Polşada**

* Minskdən xəbər verirlər ki, Varşavadan gələnlərin rəvayətinə görə, Varşava küçələrində qanlı müsadimələr [toqquşmalar] vaqe olmaqdadır. Hökumət əleyhinə nümayişlər olmuşdur. İnqilabı yatırdıqdan sonra asayiş başlanmışdır. Qoşun və əhali arasında hökumət əleyhinə narazılıq davam edir. Əhval yenə də kəskinləşməkdədir.

* Varşavadan xəbər verirlər ki, Volinada və Şərqi Qaliçyada ukraynalılar ilə polyaklar arasında müharibə davam edir. Qalibiyyət, ukraynalılar tərəfindədir.

* Minskdən teleqraf edirlər ki, polyak qəzetələrinin verdiyi məlumata görə, ukraynalılar Lvov şəhərinə bomba atmaqdadırlar. Şəhərdə işıq, su və ərzaq yoxdur. Şərqi Qaliçyada olan polyak baş komandanlığı elan etmişdir ki, ukraynalıların vəhşiliyinə görə hərbi əsirlərə şiddətli cəzalar verməyə məcbur olmuşdur.

## ADLARIMIZ

Sabiq rus hökuməti Qafqazın qeyri-müsəlman millətlərinə azadə məktəb, müstəqil kilsə, müntəzəm qoşun, milyonluq cəbhəxanalar, müzəxanalar [muzeylər], saraylar, daha nələr buraxdığı halda, biz müsəlmanlara da bir çox pozğunluqlar kəramət etmişdir. Bu pozğunluqların, bu mirasların arasında bizə bir

“metrik” [metrika, doğum haqqında şəhadətnamə] dərd-bəlası çatmışdır ki, bundan nə qədər mütəəllimlərimiz [şagirdlərimiz] məktəb üzünə həsrət qalaraq elm təhsilindən məhrum olmuşlardır və indi də əxzi-əsgər [əsgərliyə çağırış] cəhəti tərəfdən bir taqım müşkülata məruz qalırıq.

Ermənidən və gürcüdən qoşun tələbi məqsədilə rus hökuməti qabaqca bu millətlərin metrik yaxud təvəllüdnamə idarələrini nizam və tərtibə saldı. Zatən bu məsələdə rus hökumətinə xristian kilsəsi böyük bir müavinət [köməklik] göstərdi. Böylə ki, xristian etiqadına görə hər anadan olan uşağı məhəllə keşişi suya çimizdirib ona bir ad qoymalıdır. Odur ki, otuz ildən bəri Qafqaz xristianları arasında bir nəfəri, bir zinəfəsi [nəfəs alanı, canlısı], istər oğlan olsun istər qız, heç biri qələmdən düşməyərək hamısının metrik dəftərlərində adları, təvəllüd günü, ayı və ili əsla saxta olmayıb, düzgüncə bir hal ilə yazılmışdır. Binaənileyh [ona görə] bunlardan heç biri müsəlmanlar kimi təvəllüdnamə hasil etməkdə bir bu qədər cəfa və əziyyətə rast gəlməmişlərdir.

Müsəlmandan qoşun yığmaq istəməyən hökumət, onun mitrik işlərinə də bir o qədər məhəlgüzar olmadı [məhəl qoymadı] və nə üçün də olaydı?! Müsəlmandan qoşun yığmayacaqmış. İşqola, vərəsə və başburt kimi işlərə də lazım olacaq təvəllüdnamələri müsəlmanların canları çıxsın, nə tövr düzəldəcəklər düzəltsinlər. Bir tərəfdən idareyi-ruhaniyyələrimizə metrik dəftərlərini saxlatmaq ixtiyarını vermiş hökumət, o biri tərəfdən bu dəftərləri saxlayan prixod mollalarına heç bir mükafat qərar verməyərək Allah xatirəsi üçün məccanən [pulsuz] bu zəhmətə qatlaşmağı mollara tövsiyə edir. Hökumətin tələbatına görə, metrik dəftərlərini ancaq müsəddəq [təsdiqlənmiş] mollalara tapşırmalı idi. Ruhani yetişdirəcək məktəbimiz olmadığı cəhətinə, mollaların da ədədi gün-gündən azalırdı. Böylə ki, bir çox prixodların müsəddəq mollaları vəfat etdiyi əsnada yerlərinə təyin etmək üçün sair mollalar tapılmadı. Odur ki, böylə bisahib prixodların metrik dəftərləri illərcə qəzavətxanalarda [qazıxanalarda, dini məhkəmələrdə] bikarca yatıb qalmaqdadır.

Mollalı prixodlara gəldikdə, bunların da metrik dəftərlərindəki təvəllüd səhifələri yenə bomboşca qalırdı. Bunun da səbəbi, necə ki yuxarıda zikr olundu, dini-islamda ruhani vasitəsilə uşağa ad qoymaq məsələsi zərurati-diniyyədən [dini zərurətlərdən] olmadığı cəhətinə, heç kəs də prixod mollasını bu işə dəvət etməzdi. Hələ dəvət orada qalsın, bu barədə mollalara xəbərdarlıq verən də az olurdu. Bəzi valideyn bir ildən sonra yolu mollanın xanəsinə təsadüfən düşdüyü əsnada uşağının anadan olmasını xəbər verirdi ki, molla da metrik dəftərinə qeyd etsin. Dərhal metrik dəftəri aralığa gəlməzdisə, sonralardan mollanın da yadından çıxıb biçarə uşağın təvəllüd vəq’əsi [hadisəsi] tamamən itib gedərdi.

Bundan daha maraqlısı, fərz edəlim ki, Məhəmməd adlı bir uşağın təvəllüd xəbəri vaxtında metrik dəftərinə yazılmışdır, sonra uşaq vəfat edər. Vəfat xəbəri də dəftərə qeyd olunmaz. Beş ildən sonra həman valideynin yenə bir çocuğu olar. Vəfat etmiş Məhəmmədin adını yeni qardaşına qoyarlar və bu yeni təvəllüd

xəbəri də vaxtında dəftərə yazılmaz. İkinci Məhəmmədin məktəb vaxtı gəlib çatar. Prixod mollasından təvəllüdnamə tələb olunduğu halda 10 yaşlı biçarə Məhəmmədin tamam 15 yaşı çıxar. Məktəbə də götürülməz, yəni vəfat etmiş Məhəmmədin yaşına hali-həyatdakı Məhəmməd varis olmuşdur.

İştə bu metrik pozğunluğundan müsəlman əhalisinə yüzlərcə, minlərcə bəla və sədmələr toxunmuşdur ki, acısı hələ damaqlardan getməmişdir.

Azərbaycan Hökuməti bu metrik pozğunluğuna bir çarə tapacaqdırmı?

Zənnimcə, bunun çarəsi üçün nə qədər tez tədbirlər ittixaz olunarsa [tədbirlər görülərsə], bir o qədər də peşmanlıq üz verməz. Əxzi-əsgər niyyəti ilə hökumətimiz metrik dəftərlərinə müraciət etdi. Məəttəəssüf [təəssüf ki], istifadələnmədi. Axırda naçar qalaraq cavanlarımızın üzlərinə baxmaqla onların yaşları təyin edildi. Doğrudur, atın dişlərinə baxmaqla onun yaşını bilmək olar, amma insanın surəti-simasına istinadən onun yaşına hökm vermək çətin bir əmrdir [işdir]. İmdi bir az mülahizə olunsun ki, sabiq rus hökuməti azərbaycanlıları necə ağır hallara salmışdır ki, bu gün hətta vəhşilərin belə işlətmədiyi bir qaba üsuluna möhtac qalmışlardır!

Ərzaq məsələlərində sairlərin müntəzəm təhriri-nüfusları [əhalinin qeydiyyatı], siyahıyi-ümumiləri, metrikləri aralığa çıxdığı halda, müsəlmanların heç bir kəndindən, hətta heç bir şəhərindən böylə siyahılar düzəltmək mümkün olmayır. Bunun nəticəsi olaraq sairləri çay, qənd, bəyaz [ağ] kimi bir şeyləri vaxtında asanca aldıqları halda müsəlman kəndliləri bu nemətlərdən ayrıca məhrum olmaqdadırlar. Yenə səbəbi həman metrik pozğunluğudur.

Keçən keçmişdir. Gələcəkdə övladımızın lənətinə giriftar olmaq istəməyiriksə, buna indidən çarə tapmalıyız. Madam ki, Heyəti-Vüzəra [Nazirlər Kabineti] arasında xüsusi bir Ədyan Nəzarəti [Dini Etiqad Nazirliyi] də mövcuddur, metrik məsələsinin rəvac və həlli də həman Nəzarətin öhdəsinə düşür. Qabaqca bir "Adlar məcmuəsi" tərtibi üçün idareyi-ruhaniyyə əzasından [ruhani idarə üzvlərindən] mürəkkəb [ibarət] bir komisyona bu məsələni həvalə etməlidir. Komisyonun vəzifəsi, islam aləmində işlənilən ərəb, fars və türk adlarından tarixi dəlillərlə bir sənəyə məxsus bir məcmuə yap maqdır ki, burada 366 günün hər birinə məxsus kişi və arvad adları dərc olunsun.

Doğrudur, islam aləmi xristianlar kimi minlərcə rahib və əzizlərə [müqəddəslərə] malik deyilsə də, amma bir çox ənbiya [nəbilər, peyğəmbərlər], övliya [vəlilər], xüləfa [xəlifələr] və əimməsi [imamları] vardır ki, bunların təvəllüdləri kitablarımızda mövcuddur. Bunlardan əlavə, islam aləminin bir çox dahiyələri [məşhurları], üləma [alimlər], ətibba [təbiblər], üdəba [ədiblər], hükəma [filosoflar], riyazziyun [riyaziyyatçılar], sufiyyun [təsəvvüfçülər], nəbatiyyun [botanika mütəxəssisi], lüğəviyyun [lüğət alimləri], cahangir və fatehləri vardır ki, onların da təvəllüd və ya vəfat günləri tariximizdə məşhurdur.

İştə tarixlərimiz aranılsın; bu müqəddəslərin, bu dahiyələrin təvəllüdləri tapılsın; göstərilən qayda üzrə tərtibə salınsın; ərbabi-fənnin [elm adamlarının] nəzər və tənqidindən keçirildikdən sonra

çapa verilsin. İdareyi-ruhaniyyə tərəfindən bu məsələyə əhəmiyyət göstərilərsə və hümmət edilərsə, az bir vaxtdan sonra mükəmməl bir "Adlar məcmuəsi"nə malik olacağıq. Zənni-acizanəmcə məcmuənin tərtibçiləri bir neçə şeyə artıq diqqət etməlidirlər:

1. İki, üç mərtəbəli adlardan ictinab etməlidir [qaçmaq lazımdır]. Məsələn, Məhəmmədəli, Məhəmmədhəsən, Məhəmmədhüseyn, Əliməhəmməd, Əlihəsən, Əlihüseyn, Həsənəli, Hüseynəli kimi mürəkkəb adlardansa, ali-əbanın mücərrəd [tək, ayrı] adlarına kifayət etməlidir, zənnindəyəm.

2. Ərəblərin "əbd" kəlməsindən qaçmaq mümkün olmasa, türklərin "qulu" (qulu) kəlməsindən ictinab etməlidir.

3. Farsların "Şəhnamə"dəki əsatir adlarındansa, bizim Tural, Turqut, Çingiz, Uluğ, Baydu kimi sırf türk adlarına təşxis verməlidir. (Rüstəm və Əfrasiyab kimi bəzi fars adlarından da qaçmaq mümkün olmayacaqdır.)

4. Cəhd etməlidir ki, hər günə üç-dörd ad düşsün, ta ki, valideynə birisini seçmək və bəyənmək mümkün olsun. Məsələn, rəbiyyüləvvəlin 12-də Məhəmməd, Mahmud, Əhməd, Mustafa, Rəsul, Nəbi, Əmin kimi adlardan – ki hamısı peyğəmbərimizə aiddir – hər birisi qəbul oluna bilər.

Məcmuə başa gələn kimi prixod mollalarının hər birinə birər nüsxə göndərməlidir. Sahibsiz qalmış prixodların cümləsinə məvacibli mollalar təyin edərək, hamısından tələb etməlidir ki, metrik dəftərlərini baqaidə [qaydasında] saxlasınlar, bərəks surətdə [əks surətdə] səhlkar [səhlənkar] mollaları təhti-mühakiməyə [mühakimə altına] alsınlar. Əhaliyə də elan etməlidir ki, hər kəs uşağının anadan olmaq xəbərini prixod mollasına məlum etməsə, filan cəza ilə cəzalanacaqdır. Cəzanın da həddini idareyi-ruhaniyyə təyin və qərar versin.

Metrik dəftərləri bu qərarla saxlanarsa, ümidvaram, bugünkü bəlalar sabahkı övladımızın başına gəlməsin. Bəlkə ruhanilərimizin bu barədə sair təsəvvürləri vardır. Buyursunlar, mətbuat vasitəsilə bildirsinlər. Bu barədə nə qədər artıq yazılarsa, bir o qədər də həqiqətə artıq yaxın olarız. Ərbabi-qələmimiz [qələm əhlimiz, ziyalılarımız] təsəvvürlərini yazsınlar, bildirsinlər. Dərdlərimizə çarə tələb etsinlər. Bu günün işini sabaha qoyarlarsa, yenə həman bəlalara giriftar olacağız.

*Fərhad Ağazadə*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

**13 yanvar 1919-cu sənə**

Maliyyə naziri həzrətlərinin 1918-ci ildəki istiqraz haqqındakı məruzəsini dinlədikdən sonra qət edilmişdir:

Maliyyə nazirinə tapşırılsın, 1918-ci sənədə buraxılmış istiqrazın vaxtı 1919-cu sənənin fevral ayı əvaxirinədək [axırlarınadək] təxir edilsin.

**16 yanvar 1919-cu sənə**

Səhhəti-Ümumiyyə [Səhiyyə] naziri həzrətlərinin Bakı Bələdiyyəsinə borc pul vermək üçün oxuduğu məruzəsini eşitdikdən sonra qət edilmişdir:

Bələdiyyə İdarəsinə şəhəri nizama

salmaq üçün Səhhəti-Ümumiyyə Nəzarəti vasitəsilə 300 min rubləlik bir istiqraz açılsın. İşbu pul, Bələdiyyə İdarəsinə faizsiz olaraq iki il müddətinə veriləcəkdir. Bələdiyyə İdarəsi 1919-cu sənədən başlayaraq öz illik smetasına işbu istiqrazı daxil etməlidir. Həmin pulun 150 min rubləsini işbu sənə, o biri yarısını isə gələn il verməlidir.

**15 yanvar 1919-cu sənə**

Daxiliyyə naziri həzrətlərinin Qarabağ haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

Daxiliyyə naziri həzrətləri tərəfindən pişnihad [təqdim] edilmiş məruzə qəbul edilsin. Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında müvəqqəti olaraq bir general-qubernatorluq təşkil etməlidir. Təyin ediləcək general-qubernatorun ixtiyaratı Daxiliyyə Nəzarəti məruzəsində göstərildiyi qədər olacaqdır.

**15 yanvar 1919-cu sənə**

Rəisi-Vükəla [Baş nazir] həzrətlərinin Səhhəti-Ümumiyyə naziri müavini təyini haqqındakı məruzəsini dinlədikdən sonra qət edilmişdir:

Doktor Gindesi Səhhəti-Ümumiyyə naziri müavinliyinə təyin etməli, böyləliklə müvəqqəti olaraq məzkur nəzarət işlərini müşarileyh [adı çəkilən] doktora həvalə etməklə, Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri müavinini həman vəzaifdən [vəzifələrdən] azad etməlidir.

**Hökumət fəaliyyəti**

Parlaman əzasından Şıxəlibəyov Rəisi-vükəla [Baş nazir] həzrətlərinə müraciətlə Şamaxı ilə post və teleqraf müxabiratının [əlaqəsinin] təcdid [bərpa] edilməsini istida [xahiş] etmişdir. Rəisi-vükəla həzrətləri bu barədə lazımi binagüzarlıqda bulunmuşdur [sərəncam vermişdir].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Salyanda birinci qız məktəbi**

Salyan Realnı məktəbinin milliləşməsi münasibətilə ali zükur [oğlan] məktəbi şagirdləri dəxi bu məktəbə daxil olmuşlardır. Binaileyh [ona görə], ali zükur məktəbi boş qalmış, Maarif Vəzarəti [Nazirliyi] əmri ilə həmin məktəb ünas [qızlar] məktəbinə təbdil edilmişdir [çevrilmişdir]. Bu məktəb də ünas darülmüəllimatı [qız seminariyası] olacaqdır.

**Müəllimlərin əsgərliyə cəlbi**

Məlum olduğu üzrə, müəllimlər də əsgərliyə cəlb edilirlər. Müəllimlərin dəvəti ilə maarif işlərinin müşkülata düçar olacağını və çox məktəblərin qapanmaq məcburiyyətində qalacağını hiss edən Maarif naziri, müəllimlərin azad edilməsi barəsində Hərbiyyə Nəzarəti ilə müzakirata girişmişdir. Bu xüsusda Parlamana da bir layihə təqdim eyləmişdir.

* Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] cənbində [nəzdində] mövcud olan Bakı dairəsindəki möhtac əhaliyə müavinət edən xüsusi komisyonun qərardadı mövcibincə [əsasında], İrandan 30 min arşın əlvan arşın malı gətirmək üçün Nəzarət tərəfindən Rəisi-vükəlaya müraciətən rica olunur ki, ingilis komandanlığı ilə müxaribatda bulu-

nub məzkur [deyilən] arşın malını Bakıdakı möhtac əhali üçün gətirmək mümkün olub-olmadığını bilsin və olarsa, gətirilməsi xüsusunda binagüzarlıqda bulunulsun [təşəbbüs göstərilsin].

* Ümuri-Xeyriyyə Nəzarəti tərəfindən Bakıda mövcud olan tamaşaxanalardan və digər bilet lazım olan müəssisələrdən dövlət markaları yapışdırıldığını təftiş etmək üçün Nəzarətin kargüzarı Q. Ştamm təyin edilmişdir. Bu barədə Sabunçu, Balaxanı və şəhər polismeysterlərinə sorğu verilmişdir. Bundan maəda [başqa], tamaşaxanaların düxuliyyə [giriş] qəbzi ilə kniçkanın (kart) əhali arasında intişarı [yayılması] haqqında Nəzarət tərəfindən bu günlərdə Parlamana bir qanun layihəsi təqdim ediləcəkdir.

## ƏRZAQ NƏZARƏTİ CANİBİ-ALİLƏRİNƏ AÇIQ MƏKTUB

Rus lisanında müntəşir [nəşr olunan] "Azərbaycan" qəzetəsinin 11-inci nömrəsində Ərzaq Nəzarətinin idarə müdiri Makinski imzası ilə Zaqatalaya bez göndərilməsi xüsusunda dərc edilmiş məktubun üç maddəsi qismən həqiqətə xilafdır. Zira Zaqatala əhalisinə paylamaq üçün Ticarət və Sənaye Nəzarəti tərəfindən Qəbulova verilmiş 50 min bez guya Zaqatalaya çatmış və Zaqatala valisi tərəfindən 18 dekabr tarixli məzkur 50 min bezin tamamilə vüsulunu müşirrən [gəlib çatdığını] təbliğatın alınması dəxi bildirilmişdir. Halbuki, Zaqatalaya təxminən 20 min arşın bez çatmışdır. Zaqatala valisi tərəfindən böylə bir teleqrafın göndərilməsi məni heyrətə salır. Binaileyh bu haqda lütfən təhqiq və istintaqda bulunmanız məruzdur.

*Parlaman əzası Kiçikxanov*

## RƏF'İ-İŞTİBAH [ŞÜBHƏNİN ARADAN QALDIRILMASI]

Möhtərəm müdir əfəndi həzrətləri!

"Azərbaycan" qəzetəsinin 16 kanuni-sani [yanvar] tarixli 89-cu nömrəsində "Yeni qəzetələr" ünvanlı məlumatı qismində əzcümlə:

Azərbaycan müsəlman İctimaiyyuni-inqilabiyyun firqəsi [Sosialist-İnqilabçılar partiyası] tərəfindən "Əkinçi və fəhlə" nam [adlı] qəzetə çıxarılacağı istixbar edilmişdi [xəbər verilmişdi]. Azərbaycan İctimaiyyun-inqilabiyyun firqəsinin Bakı komitəsi tərəfindən rəf'i-iştibah olmaq üzrə məlum edirəm ki, fövqəlzikr [yuxarıda adı keçən] "Əkinçi və fəhlə" qəzetəsi Azərbaycan deyil, müsəlman deyil və sosialist deyil, Qafqaz və Kaspiyski "hökumətinin" erməni millətçilərinin təşəbbüsü və sərmayəsi ilə nəşr edilir. Kəndisini həqiqi sosialist hiss edən Azərbaycan sosialistləri üçün erməni millətçiləri ilə bərabər işləmək kimi həqarət və rəzalət təsəvvürə gəlməz bir şeydir. Burasını ümum türkcə oxuyanlara və müsəlman füqərayi-kasibəsinə elam etməyi [bildirməyi] vəzifəm cümləsindən bilib, işbu bəyənatımın dərcini istirham [xahiş] edirəm, əfəndim.

*Ehtiramati-faiqə ilə [böyük hörmətlə]*
*Azərbaycan İctimaiyyuni-inqilabiyyun firqəsinin müvəqqət komitəsi rəisi*
*Axundzadə Ruhulla*
*Bakı, 16 kanuni-sani 1334*

**İdarədən**: Bizə bildirilir ki bu qəzetə, Azərbaycan Müsəlman İctimaiyyuni-inqilabiyyun firqəsi tərəfindən deyil, ümumi İctimaiyyuni-inqilabiyyun firqəsinin mərkəzi komitəsi tərəfindən verilir. Məzkur qəzetənin birinci nömrəsi çıxmışdır. Ancaq nədənsə ruzmərrə [aktual] bir məsələ təşkil edən Azərbaycan istiqlalı və buna yaxın məsələlər haqqında bir söz də yoxdur. Qəzetənin tərzi-hərəkət və fəaliyyəti barəsində mütaliatına [fikirlərinə; mövqeyinə] baxaraq yazmaq mümkün olacaqdır. Bu da gələcəkdə.

**BAKI XƏBƏRLƏRİ**

**Bələdiyyə İdarəsində**

17 kanuni-sanidə [yanvarda] Bələdiyyə rəisi evində, rəisin təhti-sədarətində [sədrliyi altında] müsri [yoluxucu] xəstəliklər ilə mübarizə edəcək komitənin müştərək iclası vaqe olmuşdur. Müşavirədə qət edilmişdir ki, bütün Bakı və ətrafındakı müəssisələrdən birər doktor dəvət edib, müsri xəstəliklərlə mübarizə edəcək komitələr təşkil olunsun. Böyləliklə, təşkil ediləcək komitə öz miyanından [arasından] üç nəfərdən ibarət bir icraiyyə komitəsi intixab edəcəkdir [seçəcəkdir] ki, komitənin qətnamələrini qövldən feilə [sözdən əmələ] gətirməyə çalışacaqdır. Bir də bir baştəbiblik təşkil ediləcəkdir. Qət edilmişdir ki, bu vaxtadək çağırılmışlar sırasına əlavə olaraq 15 müəssisədən də birər nümayəndə dəvət edilsin.

**Müsri xəstəliklərlə mübarizə üçün müşavirə**

Bu gün 19 kanuni-sani [yanvar], axşam saat 7 radələrində Bələdiyyə rəisi evində, rəisin təhti-sədarətində olaraq müsri xəstəliklərlə mübarizə edəcək komitənin müştərək iclası vaqe olacaqdır. Müşavirədə Səhhəti-Ümumiyyə [Səhiyyə], Ümuri-Xeyriyyə və Nafiə [Sosial Müdafiə] və Maarif nəzarətlərindən birər nümayəndə, İngiltərə qoşunları ərkanihərbi [qərargahı] nümayəndəsi, Bakı Həkimləri cəmiyyəti nümayəndəsi, Mərkəzi Ev Komitəsi nümayəndəsi, erməni və müsəlman qaçqınları komitələrindən birər nümayəndə, iskələ [liman] idarəsi və dəmiryollar idarələrindən birər nümayəndə iştirak edəcəklərdir.

**Məzənnə**

Qafqaziya Ordusunun Baş müfəttişi, Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, hər ay ona Bakıdakı ərzaq və tənbəki və başqa əşyaya olan məzənnələr barəsində məlumat verilsin.

* Yanvar ayının 19-da, saat 11 tamamda Bakı türk mütəallimlərinin rejissoru (?) Abbas Mirzə Şərifzadənin təhti- idarəsində [idarəsi altında] bulunan "Dram və musiqi" studiyası əzalarının [üzvlərinin] Üçüncü Ali-ibtidai məktəbində iclası təyin edilmişdir. Əzanın [üzvlərin] gəlmələri xahiş olunur.

* Üçüncü uçastok ev komitəsi, dördüncü dəfə olaraq adam başına iki girvənkə qərar ilə düyü paylamağa başladığını xəbər verir.

**Aptekxana qulluqçularının tətili**

İki həftədən çoxdur ki, aptekxanalardakı "farmasevt" və sair əmələlər [işçilər]

tətil ediblər. Şəhər əhalisinin azarlılarına dərman hazırlamaq üçün bütün şəhərdə dörd aptekxana qalmışdı ki, əhaliyə dərman hazırlasın. Tətilçilərin maddi tələblərini aptekxana sahibləri qəbul edib, tətilin qurtamasını istəmişlərsə də, lakin tətilçilər indi tələbnaməyə bəzi siyasi tələblər də əlavə edib, aptek sahiblərini məcbur etmək üçün şəhərdə işləyən dörd aptekin bağlanmasını elan etmişlər.

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq naziri Gəncə müsəlman Cəmiyyəti-xeyriyyəsinə yazır ki, Gəncə Bələdiyyə İdarəsi mənə müraciətlə manufaktura malının Gəncə müsəlman Cəmiyyəti-xeyriyyəsi ixtiyarına verilməsinə protesto edir. Məndən əvvəlki nazirin verdiyi əmri ləğv etmək mümkün olmadığından, eyni zamanda zənnimə görə, manufaktura malının kartoçka ilə əhali arasında paylanması ədalətli olar. Cəmiyyəti-xeyriyyənin də kartoçkası yoxdur. Buna görə Gəncə Cəmiyyəti-xeyriyyəsinə təklif edirəm ki, manufakturanı payladığı zaman ancaq Gəncə Bələdiyyə İdarəsinin ixtiyarında olan kartoçkadan istifadə etsin.

* Ərzaq Nəzarəti vaqon təqsim [bölən] və təyin edən müvəqqət büroya xəbər vermişdir ki, Gəncə şəhər əhli ehtiyacından ötrü Gəncə Cəmiyyəti-xeyriyyəsi sədri Məşədi Əli Rəfiyev ixtyarına Tağıyev fabrikasından buraxılan 100 tay bezi Gəncəyə aparmaqdan ötrü Rəfiyevə bir vaqon verilməsi üçün büronun binagüzarlıqda bulunması [təşəbbüs göstərməsi] xahiş olunur. Həmin vaqon, yanvarın 22-də yüklənməkdən ötrü Tağıyevin fabrikasına göndərilməlidir.

## KƏNDLƏRƏ DÜYÜ PAYLANMAQ BARƏSİNDƏ

Ərzaq Nəzarətinin kəndlərə zəruri şeylər paylayan şöbəsinin verdiyi məlumatından anlaşılır ki, kəndlərə düyü paylamaq barəsində olan elanın nəticəsində heç kəs müəyyən vaxtda düyü üçün gəlib çıxmamışdır. Məlum olur ki, kənd camaatı Nəzarət[in] payladığı düyünü almaq istəmir. Onların dediyinə görə əvvəla, paylanan "ucuz düyü" o qədər pis və alçaq, sınıq və əzilmiş düyüdür ki, kəndçilər bu düyünü almaq istəmirlər. Kəndçilərin hələlikdə bir az-maz taxıl ehtiyatları olduğundan çox bərk ehtiyac hiss etmir, ona görə də bu düyüyə bir o qədər də məhəl qoymayırlar.

Və saniyən [ikincisi] düyünün qiyməti çox bahadır. Nəzarət düyünü girvənkəsi 3 manat 30 qəpikdən kəndçi vəkillərinə buraxdığı halda, yol kirayəsi, vəkillərin məxarici və pul verənlərin pul prosentləri bu düyünün qiyməti[nə] artırılandan sonra düyü bir qiymətə gəlib tamam olacaq ki, hal-hazırda o düyünün əla dərəcəsi bazarda ondan da ucuz satılmaqdadır.

Və salisən [üçüncüsü] böylə ittifaqlarda [hadisələrdə] qabağa düşüb, camaat üçün ciblərindən pul qoyub zəhmət qəbul edən camaat vəkilləri bunu yaxşı görüb bilirlər ki, düyü işində onların ciblərinə bir o qədər mənfəət girməyəcəkdir. Bezin arşını[nı] 5 manat yarıma alıb 12

manata satmağa dadanan vəkillər, düyüdə bir o qədər mənfəət olmayacağını görüb onun dalınca gəlmirlər. Doğrudan da, öylə deyil ki, heç bir kənddə bu düyüyə möhtac olan kəndlilər tapılmasın. Bir çox kəndlər var ki, orada həqiqətdə də 3 manat 30 qəpiyə düyü satılsa, onu kəndçilər alarlar. Lakin çün heç bir cəhətlə 3 manat 30 qəpiyə düyü kəndə gedib çıxmayacaqdır. Ona görə də ingilislər komandanı kəndlərə paylatmaq üçün verdikləri 3750 put düyünü Nəzarətdən geri almağa labüd [məcbur] olmuşlardır.

Burada dübarə Ərzaq Nəzarətinin nəzərini bu işə cəlb edirik ki, şəhərdə və neft mədənləri dairəsində olan kimi, kəndlərdə də camaata ərzaq və ya qeyri əşya paylamaq işini öz əlinə götürsəydi, bir neçə cəhətdən həm camaata, həm də özünə külli mənfəətlər vermiş olardı. Camaata ona görə ki, ucuz və bilavasitə hər kəsin öz hissəsini öz əlinə verməklə hamını qane etmiş olardı. Özünə də ona görə ki, camaat adına cürbəcür mübaliğə siyahılarla Nəzarətdən alı[nı]b küçə və bazarlarda vəkillər tərəfindən satılan ərzaq və sair şeylər Nəzarətin özündə qalıb lazımlı yerində sərf edilər.

*M. S.*

## İANƏ

Xəstə türk əsgərləri nəfinə [xeyrinə] idarəmizə zeyldəki [aşağıdakı] ianələr vüsul olmuşdur [çatmışdır]:

Şəfi bəy Rüstəmbəyovdan - 50 manat;

Məhəmmədhəsən Zeynalzadədən - 50 manat;

Abdulla bəy Əfəndizadədən - 25 manat;

Hidayət Nəsrullabəyzadədən - 25 manat;

Nurulla Axundzadədən - 25 manat;

Xeyrulla Axundzadədən - 25 manat;

Həbib Ələkbərzadədən - 25 manat;

Məhəmmədəli Əhmədpaşa oğlundan - 25 manat;

Yekun - 250 manat.

\- - - - - - - -

Mirzə Muxtar Məhəmmədov üçün Mixail Sergeyeviç Poqosovdan - 5 manat.

**Mehmanxaneyi-“Məhəmmədiyyə”**

Qubernski küçədə “Azərbaycan” mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

*Kamali-ehtiramla İbrahimov*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 302. "...heç xələl vermədən məmur ola bilərlər...": "məmur" yerinə qəzetdə "məbus" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 304. Tayn [Tyne]: İngiltərənin şimal-şərqində çay. Şimal dənizinə tökülür.

**Sülh Konfransı**

səh. 305. "polkovnik Hauz": qəzetdə səhvən "polkovnik Xode" kimi getmişdir.

"Çinda": qəzetdə səhvən "Çuxida" kimi getmişdir.

**Qəzetələrdən**

səh. 305. "...Məclisi-Müəssisan üzvlərinin komitəsi düşmənanə hərəkatın...": qəzetdə "komitəsi" və "düşmənanə" sözləri arasında "tərəfindən" sözü var; cümlənin mənasını pozaraq onu anlaşılmaz etdiyi üçün, bu sözü çıxardıq.

səh. 306. "...Sultan həzrətlərinin hüzuruna...": söhbət 1918-1922-ci illərdə hakimiyyətdə olan VI Məhməddən gedir.

"Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

**Adlarımız**

səh. 309. "prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

səh. 311. "ali-əba": İslamiyyətdə Həzrəti-Peyğəmbəri və yaxın qohumlarını əhatə edən ifadə; hədislərə görə ali-əba Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyndən ibarət olmuşdur.

“...türklərin «qulu» (qulu) kəlməsindən...”: “qulu” sözü köhnə əlifba ilə iki variantda (قلی , قو لی) yazılmışdır.

“...rəbiyyüləvvəlin 12-də...”: Həzrəti-Peyğəmbərin anadan olduğu gün.

**Ərzaq Nəzarəti canibi-alilərinə açıq məktub**

səh. 313. “...Ərzaq Nəzarətinin idarə müdiri Makinski imzası ilə Zaqatalaya bez göndərilməsi xüsusunda dərc edilmiş məktubun...”: söhbət, Abbasəli bəy Makinskinin rus dilində “Azerbaydjan” qəzetinin 18 yanvar 1919-cu il tarixli 11-ci nömrəsində dərc olunan məktubundan gedir.

“Qəbulov”: söhbət Mustafa bəy Qəbulovdan gedir.

**Rəf’i-iştibah**

səh. 313. “16 kanuni-sani 1334”: burada il, rumi təqvimlə verilmiş; “16” yerinə də “61” getmişdir; 16 yanvar 1919-cu il kimi başa düşülməlidir.

**Bakı xəbərləri**

səh. 314. “...Bakı türk mütəallimlərinin rejissoru (?) Abbas Mirzə Şərifzadənin...”: sual işarəsi mətndə getmişdir.

**Kəndlərə düyü paylanmaq barəsində**

səh. 316. “Mim. Sad.”: bu imza Məhəmməd Sadiq Molla Ruhulla oğluna məxsusdur.